*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   21 avqust 2019-cu il   № 64 (2381)   Qiyməti 30 qəpik


General-polkovnik Zakir HƏSƏNOV:

## Mən Azərbaycan tankçılarının "Beynəlxalq Ordu Oyunları-2019"da iştirakını yüksək qiymətləndirirəm



*Müasir dövrdə dövlətlərarası əlaqələrin, xüsusilə hərbi əlaqələrin inkişafı beynəlxalq müstəvidə yeni güc mərkəzlərinin yaranmasının nəticəsi kimi ortaya çıxır. Ölkəmizin bu gün dünyada yeri və rolunun artması, beynəlxalq münasibətlər sisteminin ən fəal üzvü kimi nüfuz qazanması da bu gerçəkliyi təsdiqləyir ki, Azərbaycan dövləti yerləşdiyi regionun geostrateji və geosiyasi üstünlüklərindən faydalı şəkildə bəhrələnmək, milli maraqlarını maksimum səmərəli realizə etmək üçün beynəlxalq hərbi əməkdaşlığı uğurla davam etdirir.*

Dövlətlərarası münasibətlər həm də müxtəlif beynəlxalq tədbirlərdə möhkəmlənir. Hərbi əməkdaşlıq baxımından dəyərli hesab edilən belə tədbirlərdən biri də ənənəvi olaraq keçirilən "Beynəlxalq Ordu Oyunları"dır. Bu tədbir iştirakçı dövlətlərin orduları arasında ikitərəfli və çoxtərəfli əlaqələrin zənginləşməsinə öz töhfəsini verir.

(Ardı 2-ci səhifədə)



"Davamlı rabitə döyüş hazırlığında vacib şərtdir"

4-cü səhifədə



"Hərbi-tibbi estafet" müsabiqəsində hərbi həkimlərimiz medalla təltif olunub

5-ci səhifədə



Əsgərlərin gündəlik qidalanması yüksək səviyyədədir

7-ci səhifədə



Oğulların yolu ataların yoludu

8-ci səhifədə

## General-polkovnik Zakir HƏSƏNOV:

# Mən Azərbaycan tankçılarının "Beynəlxalq Ordu Oyunları-2019"da iştirakını yüksək qiymətləndirirəm

(Əvvəli 1-ci səhifədə)



"Beynəlxalq Ordu Oyunları" dövlətlərarası hərbi əməkdaşlığın daha da möhkəmlənməsi, hərbi xidmətin nüfuzunun artırılması, döyüş imkanlarının nümayişi, şəxsi heyətin peşəkarlığının və döyüş qabiliyyətinin daha da yüksəldilməsi, eləcə də iştirakçı dövlətlərin Silahlı Qüvvələri arasında qarşılıqlı etimad mühitinin formalaşması, dostluq və rəqabət gücünün daha da artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. "Beynəlxalq Ordu Oyunları" yarışları ölkəmizin inkişafını və ordumuzun gücünü bir daha nümayiş etdirir və ölkəmiz üçün əhəmiyyəti olduqca böyükdür. Bu əhəmiyyət çoxşaxəlidir, onun siyasi-diplomatik nəticələri Azərbaycanın və onun ordusunun beynəlxalq münasibətlər sistemində mövqeyini daha da gücləndirir.

Bu gün beynəlxalq münasibətlər sistemində sərt və yumşaq güc anlayışları mövcuddur. İki dünya müharibəsi, Soyuq müharibə kimi acı təcrübələr yaşamış dünyada sərt güc vasitələri və metodları artıq sivilizasiyalı, tərəqqipərvər bəşəriyyətin gündəmində öz mövqeyini itirməkdə və yerini yumşaq güc vasitələrinə ötürməkdədir. Belə bir deyim var, böyük ordular, qoşunlarla torpaqları işğal etmək olar, ancaq bu zorakı qələbələr müvəqqətidir. Mədəniyyətlə isə beyinləri, ürəkləri əbədi fəth etmək olar. Artıq zorakılıq, işğal yolu ilə nüfuz qazanmaq, hər hansı bir proseslərə təsir etmək, beynəlxalq ictimai rəyin qazanılmasına nail olmaq ənənələri ortadan qalxmaqdadır. Bu mənada "Beynəlxalq Ordu Oyunları" kimi yüksək, kəsərli güc-nüfuz vasitələri ön plana çıxmaqdadır. Azərbaycan məhz bu sivil, ümumbəşəri qəbul olunmuş vasitələrdən istifadə edərək öz beynəlxalq nüfuzunun artmasına nail olmaq, dünyanın geosiyasi və geostrateji güc mərkəzlərindən birinə çevrilmək istiqamətində uğurla irəliləyir. Artıq ölkəmiz vacib beynəlxalq qərarların qəbul edildiyi mərkəzlərdən birinə çevrilib. Xüsusilə, hazırda dünyada mürəkkəb siyasi, hərbi, iqtisadi-maliyyə, mədəniyyətlərarası dərin qarşıdurmaların mövcud olduğu nəzərə alınarsa, bu tədbir olduqca əhəmiyyətli sayılmalıdır.



Dünya bu gün çətin bir mərhələdən keçir, bugünkü proseslər və qərarlar bəşəriyyətin gələcəyi naminə çox şeyi dəyişəcəkdir. İnsanlar kimi dövlətlərin də mənəvi keyfiyyətləri, davranışı məhz indi özünü daha qabarıq büruzə verir, sınağa çəkilir. Bu sınaqdan üzü ağ çıxan dövlətlər dünya tarixində şanlı bir səhifə yazacaqdır, çünki tarix hər şeyə özü qiymət verir. Bizim ölkəmiz ədalətli, obyektiv mövqe tutmaqla yanaşı, yaşadığımız bölgədə və digər regionlarda sülh və sabitliyin inkişafına çalışır, bunun üçün əlindən gələni edir.

Bütün bunlarla yanaşı, döyüş hazırlığının yüksək səviyyədə saxlanılması da daim Müdafiə Nazirliyi rəhbərliyinin diqqət mərkəzindədir. Çünki düşmənə qarşı mübarizədə və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində şəxsi heyətin döyüş vərdişlərinin artırılması mühüm əhəmiyyət kəsb edir. Ordunun əldə etdiyi uğurların arxasında mütəmadi keçirilən döyüş hazırlığı dərsləri və təlimlər dayanır. Bütün bunlar mürəkkəb əməliyyat şəraitində zabit və əsgərlərin təcrübi bacarığının və mənəvi-psixoloji dözümlülüyünün formalaşmasına yardımçı olur.

Bu gün Azərbaycan Ordusunun döyüş hazırlığı, şəxsi heyətin müasir silah və texnikadan məharətlə istifadə etmək bacarığı, peşəkarlığı və təchizatı region dövlətlərinin orduları ilə müqayisəedilməz səviyyədə yüksəkdir. Əldə edilən uğurlara maddi-texniki bazanın inkişaf etdirilməsi, qabaqcıl üsulların tətbiqi ilə təlim və tədris sisteminin daha da təkmilləşdirilməsi, hərbi təhsilin və hərb elminin günün tələbləri səviyyəsində qurulması, şəxsi heyətin yeni döyüş şəraitinə uyğun təlimlərinə diqqətin artırılması hesabına nail olunub. Təcrübələr onu göstərir ki, döyüş səhnəsində hazırlıqlı hərbi qulluqçu daha çox əhəmiyyət daşıyır. Əsgərlərin istər fiziki, istərsə də mənəvi cəhətdən inkişaf etməsində, hərbi qulluqçu kimi Vətənin müdafiəsinə hazırlanmasında təlimlər, keçirilən məşqlər, döyüş hazırlığı dərsləri xüsusi rol oynayır.

Yüksək döyüş hazırlığının nəticəsidir ki, Azərbaycan hərbi qulluqçuları "Beynəlxalq Ordu Oyunları-2019" çərçivəsində keçirilən "Dəniz Kuboku", "Tank biatlonu", "Səhra mətbəxi", "Hərbi-tibbi estafet", "Snayper həddi" və "Artilleriya atəşinin ustaları" müsabiqələrində ölkəmizi yüksək səviyyədə təmsil ediblər.

Təsadüfi deyil ki, Xəzər dənizinin Azərbaycana məxsus ərazi sularında şəffaf, qarşılıqlı anlaşma şəraitində keçən "Dəniz Kuboku-2019" müsabiqəsinin qalibi məhz Azərbaycan komandası olub. Eyni zamanda, tankçılarımız ötən illərdə olduğu kimi, bu il də ölkəmizi "Tank biatlonu" müsabiqəsində layiqincə təmsil ediblər. Üç mərhələdən - fərdi, estafet və final mərhələlərindən ibarət olan yarışda tankçılarımız öz bilik, bacarıq və qabiliyyətlərini əsirgəməyiblər və 30-a yaxın dövlət arasında 4-cü olublar. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov tankçılarımızın bu uğurunu yüksək qiymətləndirərək demişdir: "Mən Azərbaycan tankçılarının "Beynəlxalq Ordu Oyunları-2019"da iştirakını yüksək qiymətləndirirəm. Azərbaycan tankçıları müsabiqəyə qatılan 30-a yaxın ölkə arasında finala çıxdılar. Dörd ən güclü komanda arasında bizim komanda da var. Bu artıq özü yüksək nəticədir". Belarus Respublikasının Müdafiə naziri Andrey Ravkov da tankçılarımızın beynəlxalq hərbi oyunlarda iştirakını yüksək dəyərləndirmişdir: "Azərbaycan tankçılarının beynəlxalq hərbi oyunlarda iştirakını və mübarizəsini yüksək qiymətləndirir, güclü və uğurlu çıxış etdiklərini vurğulamaq istəyirəm. Onların hazırlığı və hərbi işə göstərdikləri münasibət peşəkarlıqdır və bu, danılmaz faktdır".



Moskva şəhərində səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov avqustun 17-də Alabino poliqonunda təşkil edilən "Beynəlxalq Ordu Oyunları-2019" yarışlarının son günündə "Tank biatlonu" müsabiqəsinin final mərhələsinə çıxmış komandaların mübarizəsini izləyib və qalib gəlmiş hərbi qulluqçuların mükafatlandırılmasında da iştirak edib.

Müdafiə naziri rusiyalı həmkarı, ordu generalı Sergey Şoyqu ilə birgə poliqonda təşkil olunan "Dostluq evi"nə gəliblər.

Burada onlar iştirakçı dövlətlərin mədəniyyət nümunələri nümayiş etdirilən sərginin Azərbaycana aid bölməsində ölkəmizin tarixi, mədəniyyəti, adət-ənənələri, məişətinə aid eksponatlarla yaxından tanış olublar.

"Beynəlxalq Ordu Oyunları-2019" yarışlarının təntənəli bağlanış mərasimi bayram konserti ilə sona çatıb.

"Beynəlxalq Ordu Oyunları-2019" yarışları da sübut etdi ki, güclü Azərbaycan Ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməklə yanaşı, şəxsi heyəti ordumuzu beynəlxalq yarışlarda da yüksək səviyyədə təmsil etmək gücündədir. Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının, Müdafiə Nazirliyi rəhbərliyinin qarşıya qoyulmuş vəzifələri uğurla həyata keçirməsinin nəticəsində mümkün olub. Biz hamımız "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində keçirilən müsabiqələrdə də bir daha buna əmin olduq.

**"Azərbaycan Ordusu"**

Ordu quruculuğu

# Hərbi səhiyyənin inkişafı uğurla davam etdirilir

*Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra mühüm dövlətçilik atributlarından biri olan ordu da yaradıldı. Yerli müdafiə batalyonları ordu kimi formalaşmadığına görə torpaqlarımızı müdafiə edə bilmədi. Xalqın təkidli tələbiylə hakimiyyətə qayıdan böyük tarixi şəxsiyyət Heydər Əliyev ordu quruculuğunu dövlət üçün prioritet elan etdi. Az müddətdə bu istiqamətdə əsaslı dönüş yaradıldı. Azərbaycan Ordusu nizami ordu kimi formalaşmağa başladı...*






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin siyasi kursunu bu sahədə uğurla davam etdirdi, ordu quruculuğu dövlətimiz üçün prioritet sahələrdən biri olaraq qaldı. Müharibə şəraiti ordu quruculuğunun daha əhatəli inkişafını tələb edir. Azərbaycanda bu proses bütün parametrləri ilə həyata keçirildiyindən ordumuz nəinki Cənubi Qafqazda, dünya miqyasında güclü ordular sırasında 52-ci yerdədir. Son illərdə ordu quruculuğu istiqamətində istər məzmun, istərsə də forma baxımından böyük islahatlar həyata keçirilib. Dövlətin orduya daimi diqqət və qayğısının nəticəsidir ki, silahlanmaya ən müasir texnika və avadanlıqlar daxil edilib, hərbi təhsilin yüksək səviyyəsi bu silahların, avadanlıqların istismar xüsusiyyətlərinin operativ və yüksək səviyyədə mənimsənilməsini təmin edir. Zabitlər hərbi hissələrdə bu bilikləri əsgərlərə, ümumən hərbi qulluqçulara məsuliyyətlə aşılayırlar. Hazırda şəxsi heyətin mənəvi-psixoloji hazırlığı yüksəkdir. 2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin mayında qazanılan Günnüt zəfəri, Azərbaycan Ordusunun yaradılmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradlar ictimaiyyətin orduya inamını yüksəltməklə bərabər, torpaqlarımızın işğaldan azad ediləcəyinə əminlik də yaratdı.

Azərbaycan Ordusunda həyata keçirilən islahatların bir hissəsi yeni hərbi şəhərciklərin, hərbi hissələr üçün inzibati binaların, vacib infrastrukturların yaradılmasını əhatələyir. Bunlar şəxsi heyətin həm döyüş, həm də mənəvi-psixoloji hazırlığının yüksəldilməsində mühüm əhəmiyyətə malikdir.

Ölkəmizin sürətli, dinamik iqtisadi inkişafı ordumuzun timsalında da geniş əks olunur. Ordu quruculuğuna xüsusi diqqət və qayğı göstərən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə ordu quruculuğu yüksək templə, tərəqqi yolu ilə uğurla davam etdirilir. Böyük qayğının bəhrəsidir ki, Azərbaycan Ordusunun maddi-texniki imkanlarının daha da genişləndirilməsi ilə yanaşı, hərbi qulluqçuların xidmət, sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər müntəzəm davam etdirilir. Bölgələrdə yeni yaşayış kompleksləri, hərbi şəhərciklər, təlim paliqonları, hərbi qulluqçuların sağlamlıqlarının etibarlı qorunması üçün müasir tələblərə cavab verən hospitallar tikilir.

Xalqımızın müqəddəs bayramlarından sayılan Qurban bayramı günü cəbhəboyu zonada hərbi qulluqçulara göstərilən tibbi xidmətin daha da yüksəldilməsi istiqamətində daha bir yenilik edildi - yeni hərbi hospital istifadəyə verildi. Bu, tibbi xidmət şəbəkəsinin genişləndirilməsi baxımından olduqca gərəkli hesab edilməlidir.

Hospital bölgədə xidmət edənlərin sağlamlığına təminatdır. Bu baxımdan hospitalın ən müasir tibbi avadanlıqlarla təchiz edilmiş yeni binası şəxsi heyətin sağlamlığına dövlətin növbəti diqqət və qayğısıdır.

Açılış mərasimində təntənə hamıda xoş ovqat yaratmışdı. Hər bir yenilik inkişaf deməkdir. Ordumuzda bu yenilik hamını sevindirirdi.

Açılış mərasimində Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti iştirak edirdi.

Ümummilli lider Heydər Əliyev heç zaman unudulmur, unudulmayacaq da. Böyük tarixi şəxsiyyət Heydər Əliyevin hospitalın ərazisində ucaldılmış abidəsi önünə ehtiram çiçəkləri-gülləri qoyuldu. Bu çiçəklər-güllər əbədiyyətə cığırdaş olan bir ömürə sədaqətin təsdiqiydi.

Azərbaycanın Dövlət himni səsləndirildi. Sonra hospital haqqında burada yaradılmış şəraitlə bağlı Müdafiə nazirinə geniş məruzə edildi.

Böyük bir ərazini əhatə edən hospitalın yeni binasının yüksək fəaliyyəti üçün müxtəlif şöbələr var. Hospitalda iki mərtəbəli diaqnostika mərkəzinin yaradılması onun fəaliyyətinin nə qədər çoxşaxəli olacağının göstəricisidir. Bu mərkəzdə qan bankı, müalicə palataları, laboratoriyalar, əməliyyatxanalar, reanimasiya palatası da var. Hospitalın rəisi tibb xidməti polkovnik-leytenantı Hüseyn Qaçayev dedi:

- Bu yenilik ordu quruculuğunun dövlət üçün nə səviyyədə gərəkli olduğunu təsdiqləyir. Təsdiqlənir ki, ordu dövlət üçün birmənalı şəkildə prioritetdir. Bu yeniliyə görə şəxsi heyət adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk. Bu, bizim hər birimizin - həkimlərin də, tibb bacılarının da, texniki işçilərin də məsuliyyətini artırır. Milli mentalitetimizə görə sayğıya daha böyük məsuliyyətlə cavab verilməlidir.



Qeyd edilməlidir ki, müalicə işlərinin səmərəli aparılması üçün oksigen binası da inşa edilib.

Yeni hospitalda tibb elmində ən son yeniliklərin də tətbiqi təbiidir. Belə ki, hospital Almaniyada, ABŞ-da, Yaponiyada və digər böyük dövlətlərdə istehsal edilən tibbi avadanlıqlarla təchiz edilib. Bu fəaliyyətin başlanğıcı baxımından diqqəti çəkir. Palatalarda hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmət göstəriləcək. Burada hərbi qulluqçuların müalicəsi üçün hər cür şərait yaradılıb. Belə ki, hospital bioloji təmizləmə qurğusu, cərrahiyə əməliyyatlarının fasiləsiz təminatı üçün UPS sistemi, ehtiyat generator qurğusu, ümumiyyətlə bütün zəruri kommunikasiya sistemləri ilə təmin olunub.

Yeni hospitalın geniş fəaliyyəti bilavasitə ordunun şəxsi heyətinin sağlamlığının mühafizəsi üçündür. Bu hospitalda təxirəsalınmaz tibbi yardım da nəzərdə tutulmuşdur. Bu məqsədlə iki reanimobildən ibarət qrup yaradılıb və təxliyə üçün hospitalın ərazisində helikopter meydançası qurulub. Bu, olduqca gərəklidir. Belə ki, bəzən texniki imkanların məhdudluğu hərbi qulluqçuya sonacan yardım etməyə imkan vermir.

Birinci Qarabağ müharibəsində bölgələrdə hospitallarda belə meydançalar olmadığına görə müəyyən ağrılar da yaşanıldı.

Azərbaycanda səhiyyə olduqca yüksək səviyyədə inkişaf edib. Bu baxımdan hərbi səhiyyənin də inkişafı haqqında yüksək fikirlər deyilməlidir. Mərkəzi Hərbi Hospitalda da, bölgələrdə fəaliyyət göstərən hospitallarda da tibb xidməti ən yüksək səviyyədə təşkil edilir ki, bu da ordumuzun şəxsi heyətinin sağlamlığının mühafizəsinin həmişə diqqət mərkəzində saxlanıldığının təsdiqidir.

Bu kimi yeniliklər təsdiqləyir ki, hərbi səhiyyəmiz daima inkişafdadır.

**Mübariz MUSAYEV,**
**İsa İSMAYILOV**

# Zenit-Raket Qoşunlarında döyüş atışlı təlimlər keçirilib



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2019-cu ilin döyüş hazırlığı planına əsasən, Hərbi Hava Qüvvələrinin Zenit-Raket Qoşunlarında döyüş atışlı təlimlər keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, birləşmə və hissələrin ştat şəxsi heyəti S-125 zenit-raket komplekslərindən şərti düşmən hədəflərini aşkarlayaraq praktiki şəkildə məhv etmə tapşırığını müvəffəqiyyətlə icra edib.

Keçirilən təlimlərin məqsədi şəxsi heyətin praktiki vərdişlərini təkmilləşdirmək və döyüş qabiliyyətinin yüksəldilməsinə nail olmaqdır.



## Təlim

# "Davamlı rabitə döyüş hazırlığında vacib şərtdir"

*Dünyanın ən güclü orduları sırasında dayanan ordumuzun digər xidmətləri ilə yanaşı, rabitə sistemi də gündən-günə təkmilləşir. Azərbaycan Ordusunun maddi-texniki təminatına ən müasir rabitə sistemləri daxil edilir. Rabitənin üstünlüklərindən danışılarkən bildirilir ki, rabitə olmadan döyüşü aparmaq mümkünsüzdür. Rabitəsiz döyüş heç zaman idarə oluna bilməz. Qeyd etmək lazımdır ki, rabitədə əsas şərt davamlı və dayanıqlı rabitə əlaqəsinin yaradılmasıdır.*

Cəbhə bölgəsində yerləşən "N" hərbi hissənin rabitə sistemi də əsas şərtlərə uyğun qurulub. Ən müasir rabitə qurğuları ilə təchiz edilən hərbi hissənin rabitə sistemi daim döyüşə hazırlıq səviyyəsindədir. Biz hərbi hissədə ezamiyyətdə olarkən rabitəçilərin çöl şəraitində keçirilən ixtisas hazırlığı dərslərini izlədik.

Rabitə bölməsinin zabiti Elvin Hüseynovdan öyrəndik ki, dərslərin gündəlik olaraq keçirilməsində əsas məqsəd rabitəçilərin bilik və bacarıqlarının, peşə vərdişlərinin daim artırılmasına yönəlib. Hər gün ixtisas üzrə yeni mövzular ətrafında hazırlıqlarını artıran rabitəçilərimiz müasir qurğulardan istifadə qaydalarını praktiki mənimsəyirlər.



- Müharibə şəraitində daha çox hansı rabitə vasitələrindən istifadə olunur? sualını cavablandıran leytenant E.Hüseynov bildirdi ki, praktika naqilli rabitədən çox istifadə edildiyini göstərir. "Ona görə ki, naqilli rabitə etibarlıdır və dayanıqlılığı qoruyur. Ümumiyyətlə, həm naqilli, həm də radio rabitə vasitələrinin işinin saz və dayanıqlı saxlanması əsas götürülür. Davamlı rabitə döyüş hazırlığında vacib şərtdir. Peşəkar rabitəçi ərazinin relyefini hərtərəfli öyrənməlidir. Dağlıq, təpəlik, sıldırım qayalıqlarda rabitə sisteminin uyğun qaydalar üzrə yerləşdirilməsi onun etibarlılığını daha da gücləndirir. Rabitənin yerləşdirilməsi bir qayda olaraq əraziyə görə seçilir. Soyuq, qarlı-yağışlı, dumanlı havada ərazini əgər tanımırsansa, kəsilmiş rabitə xəttinin bərpası çətinləşir. Bu səbəbdən də müasir rabitə vasitələrinin sirlərini mükəmməl öyrənmək vacibdir. Rabitə sahəsində hər gün, hər saat yenilik var. Müasir dünyamızı rabitəsiz təsəvvür etmək olmaz. Rabitə bölməsində yeni xidmətə başlayan hərbi qulluqçulara tövsiyəm odur ki, rabitənin orduda əhəmiyyətini dərindən başa düşüb, peşəkarlıqlarını daim artırsınlar, vəzifə borclarını məsuliyyət hissi ilə yerinə yetirsinlər. Biz zabitlər də öz növbəmizdə çalışırıq ki, təcrübədə qazandığımız bilik və bacarıqlarımızı şəxsi heyətə çatdıraq".

Gənc zabit E.Hüseynov şəxsi heyətə səhra telefon aparatlarının imkanları barədə məlumat verdi: "Səhra telefon aparatları səhra şəraitində naqilli rabitəni təmin etmək üçün nəzərdə tutulub. Müxtəlif tipli rabitə xidmətlərindən istifadə etməklə, uzaq məsafədən rabitə əlaqəsi yaratmaq imkanına malikdir".

Zabitlərdən baş leytenantlar Tarix Aslanov, Şükür Babazadə, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları baş çavuş Samir Səfərov, çavuşlar Gülüş Ağazadə, Tofiq Fəttahov və başqaları şəxsi heyətin ixtisas hazırlığında bilik və bacarıqlarını onlara aşılayır və onlar hərbi hissənin rabitə xidmətinin yüksək səviyyədə qurulmasında böyük rol oynayırlar. Rabitəçilərimizin də ən böyük arzusu düşmən işğalında olan torpaqlarımızın azad edilməsində bilik və bacarıqlarını nümayiş etdirməkdir. Qoy, onlar tezliklə Qələbə xəbərini Azərbaycan xalqına çatdırsınlar!

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "Ordumuz düşmənin istənilən fəaliyyətini müxtəlif kalibrli silahların nişangahı altında saxlayır"

Azərbaycanın Müdafiə Nazirliyi Ermənistan mətbuatının yaydığı xəbərə münasibət bildirib.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildirilib ki, təbliğat məqsədilə yayılan bu xəbərin heç bir əsası yoxdur: "Tam fərqli olaraq Azərbaycan Ordusunun bölmələri cəbhənin bütün istiqamətlərində düşmənin istənilən fəaliyyətini müxtəlif kalibrli silahların nişangahı altında saxlayır, vizual və xüsusi texniki müşahidə vasitələri ilə izləyir, eləcə də onun istənilən hərəkətinin qarşısını hər an almağa hazırdır. Bu kimi xəbərlər gülüş doğurur. Biz bu cür məlumatlara, onları yayanlara və ələlxüsus inananlara təəssüf hissi ilə yanaşırıq".

Qeyd edək ki, Ermənistan mətbuatı guya aparılan mühəndis-istehkam tədbirləri nəticəsində mövqelərini irəli çəkmələri barədə məlumat yayıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***19 avqust 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan və İcevan rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Kəngərli, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***20 avqust 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu, Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Şıxlar, Baş Qərvənd, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Dəniz kuboku müsabiqəsi dövlətlərarası münasibətləri daha da möhkəmləndirir"

*Ölkələrarası hərbi əməkdaşlığın daha da möhkəmlənməsi, eləcə də iştirakçı dövlətlərin Silahlı Qüvvələri arasında qarşılıqlı etimad mühitinin bərqərar olması, dostluq və rəqabət gücünün daha da artırılması məqsədinə xidmət edən "Beynəlxalq Ordu Oyunları"nın əhəmiyyəti hər bir iştirakçı ölkə üçün böyükdür.*

"Beynəlxalq Ordu Oyunları" çərçivəsində keçirilən "Dəniz Kuboku-2019" müsabiqəsində iştirak edən Rusiya, İran, Qazaxıstan və Azərbaycan respublikaları Hərbi Dəniz Qüvvələrinin komandaları Xəzər dənizinin Azərbaycan akvatoriyasında gərgin mübarizə şəraitində yarışdılar və bacarıqlarını nümayiş etdirdilər. Şəffaf və yüksək səviyyədə keçirilən müsabiqədə iştirakçıların döyüş hazırlığı səviyyəsinin yüksək olduğu müəyyən olundu. Gərgin mübarizə şəraitində keçən müsabiqədə beynəlxalq hakimlər kollegiyası da öz vəzifələrini ləyaqətlə yerinə yetirdilər. Bu günlərdə başa çatan "Dəniz Kuboku-2019" müsabiqəsində beynəlxalq hakimlər kollegiyasının qərarına əsasən, Azərbaycan komandası birinci, Rusiya ikinci, Qazaxıstan üçüncü, İran komandası isə dördüncü yerdə qərarlaşdılar.

Yarış bitdikdən sonra fürsətdən istifadə edib "Dəniz Kuboku-2019" müsabiqəsində iştirak edən İran komandasının rəhbəri, 1-ci dərəcəli kapitan Hüseyn Həsəninin təəssüratlarını öyrəndik. O, Bakıya ilk dəfə gəldiyini qeyd etdi. "Bakı şəhərinin belə gözəl turizm imkanları haqqında o qədər də məlumatlı deyildim. Düzdür, buraya gəlməzdən öncə Bakı şəhərinin əsrarəngiz gözəlliyini özüm üçün təsəvvür edirdim, onun haqqında çoxlu mütaliə edir və filmlərə baxırdım. Hətta ehtiyata buraxıldıqdan sonra Bakıya gəlməyi planlaşdırırdım. Burada gördüklərim təsəvvürlərimi xeyli üstələdi. Mən həm xəyalımdakı şəhəri gördüm, həm də gözəl və xoş təəssürat aldım. Bu şəhərin hərtərəfli inkişafı insanı heyran



edir. Küçələrdə gəzmək və ətrafı seyr etmək insana zövq verir", - deyə H.Həsəni vurğuladı.

- Təəssüf ki, şəhəri gəzməyə vaxtım olmadı, çünki müsabiqə çox vaxt apardı. Mən bunu etməyi sevirəm və çalışacam ki, paytaxtınızın küçələrini bir daha gəzim və gözəllikləri seyr edim. Bakı tarixi binaların və tarixi binalara bənzədilən yeni tikililərin xüsusi mühitinə malikdir. Şəhərin müasir binaları da insanı heyrətləndirir. Onlar müasir, modernist tikililər olsa da, Bakı haqqında ümumi təəssüratı pozmur, əksinə yenilik əlavə edir. Bakı inanılmaz dərəcədə gözəl bir şəhərdir! Əvəzolunmaz tarixi irsi və müasirliyi özündə birləşdirən şəhər məni çox sevindirdi. Qədim İçərişəhəri, "Alov Qüllələrini", Şirvanşahlar Sarayını, Qız Qalasını, Dənizkənarı Bulvarı, Qobustan Təbiət Qoruğunu, möhtəşəm parkları və digər görməli, gəzməli yerləri heç bir zaman unutmayacam.

Yarış barədə danışan 1-ci dərəcəli kapitan Hüseyn Həsəni bildirdi ki, Azərbaycan belə mühüm yarışı üçüncü dəfədir yüksək səviyyədə təşkil edir. "Müsabiqənin bu cür gözəl təşkil olunması üçün Azərbaycan tərəfinə komandamız adından təşəkkür edirəm. Bu yarışlarda iştirakçılar peşəkarlıqlarını ortaya qoydular. Gərgin mübarizə şəraitində keçən yarışda Azərbaycan komandası qalib gəldi. Mən bu qələbə münasibətilə Azərbaycan xalqını təbrik edirəm. Gələcək müsabiqələrdə də uğurlar arzu edirəm. Biz burada olmaqdan çox şadıq. Bu yarışlar hər bir komandaya təcrübə mübadiləsi aparmağa imkan yaradır. Xəzəryanı dövlətlər arasında bu cür tədbirlər çox faydalıdır. Yarış Xəzəryanı dövlətlər arasında tərəfdaşlıq və dostluğun inkişafına əlverişli şərait yaradır. Əlbəttə, yarışın şəffaf keçirilməsində hakimlərin də əziyyətlərini qeyd etmək lazımdır. Dostluq mühitində keçirilən yarışda hakimlər kollegiyası da böyük əziyyətlər çəkdi. Qeyd etmək istəyirəm ki, hakimlərimiz şəffaf və dəqiq qiymətləndirmə aparırdılar. Heç bir narahatçılıq yaranmırdı. Onlar öz vəzifələrini ləyaqətlə yerinə yetirdilər. Onlara da dərin minnətdarlıqlarımı bildirirəm".

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# "Hərbi-tibbi estafet" müsabiqəsində hərbi həkimlərimiz medalla təltif olunub



"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Özbəkistanda keçirilən "Hərbi-tibbi estafet" müsabiqəsinə komanda birinciliyi yarışları ilə yekun vurulub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hakimlərin qərarına əsasən yarışda qazandığı uğura görə 11 komanda arasında Azərbaycanın kişilərdən ibarət komanda heyəti 111 xalla 3-cü yerə layiq görülüb. Özbəkistan və Qazaxıstan komandaları isə müvafiq olaraq birinci və ikinci yerlərdə qərarlaşıb.

"Hərbi-tibbi estafet" müsabiqəsinin təntənəli bağlanış mərasimində Azərbaycan Ordusunun kişilərdən ibarət hərbi həkimlər komandası medalla təltif olunub.

# Qəzaya uğrayan MiQ-29 təyyarəsinin "qara qutusu" tapılıb

Gecə təlim-məşq uçuşu keçirən zaman qəzaya uğramış Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin "qara qutusu" tapılaraq dənizdən çıxarılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hazırda qurğunun içərisində olan məlumatların əldə edilməsi məqsədilə "qara qutunun" texniki vəziyyəti öyrənilir.

Eyni zamanda, təyyarənin qalıqlarının dənizin dibindən çıxarılması üzrə tədbirlər davam etdirilir.

# Naxçıvan Qarnizonundan xəbərlər

"Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na əsasən, Əlahiddə Ümumqoşun Orduda taqım komandirləri ilə komandir hazırlığı məşğələləri keçirilib.

Məşğələlərdə əsas məqsəd zabitlərin hərb sənəti üzrə biliklərinin, bölmələrin idarə edilməsi üzrə bacarıqlarının və komandir keyfiyyətlərinin təkmilləşdirilməsi olub. Məşğələlər zamanı taqım komandirlərinin ümumqoşun, ixtisas, fiziki və metodiki hazırlıq səviyyələri yoxlanılıb.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində məşğələlərin yekun təhlili aparılan zaman bildirilib ki, məqbullar götürülərkən taqım komandirləri yüksək nəticə göstəriblər.

* * *



"Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na əsasən, növbəti komanda-qərargah təlimi başlayıb.

Naxçıvan Qarnizonu qoşunlarında üçpilləli, ikitərəfli keçirilən növbəti komanda-qərargah təlimi müxtəlif mərhələlərdə icra edilir.

Təlim çərçivəsində "Həyəcan" siqnalı ilə cəmləşmə rayonlarına çıxarılan qoşunların idarə olunması praktiki həyata keçirilir. Ərazidə əməliyyatların qərargahlar tərəfindən planlaşdırılmasından sonra qəbul edilmiş qərarlar Simulyasiya mərkəzində kompüterlər üzərində icra ediləcək.

Təlim avqustun 24-dək davam edəcək.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Ağdamda şəhid Nadir Şükürovun xatirəsi anılıb

Ağdam rayonunun Mahrızlı kəndindəki Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyində respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş Nadir Şükürovun xatirəsi anılıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, şəhid Nadir Şükürovun ailə üzvlərinin, döyüş yoldaşlarının, mədəniyyət işçilərinin və məktəblilərin iştirak etdiyi tədbirdə əvvəlcə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Mərasimdə Döyüş Şöhrəti Muzeyinin direktoru Sahib Məmmədov, Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Ülvi Qədirov, Zəngişalı kənd mədəniyyət evinin müdiri Fikrət Əliyev, şəhidin qardaşı Xudad Şükürov, bacısı Sevil Qarayeva və döyüş yoldaşları çıxış edərək, onun mənalı həyat və qəhrəmanlıqla dolu döyüş yolundan danışıblar. Məlumat verilib ki, Şükürov Nadir Bəbir oğlu 1968-ci il aprelin 7-də Ağdam rayonunun Zəngişalı kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra 1986-1988-ci illərdə keçmiş sovet ordusunda xidmət edib. Ermənistanın respublikamıza hərbi təcavüzü başlayanda Nadir Şükürov da silaha sarılaraq Vətənimizin müdafiəsinə qalxıb. Ağdam, Ağdərə istiqamətlərində gedən döyüşlərdə iştirak edib. 1992-ci il avqustun 15-də Ağdam rayonunun Qalaycılar kəndi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Zəngişalı kənd qəbiristanlığında dəfn edilib.

Mərasim iştirakçıları sonra Nadir Şükürov haqqında hazırlanmış video-slaydı izləyib, şəhidin Döyüş Şöhrəti Muzeyində saxlanılan foto və əşyalarına baxıblar. Məktəblilər kompozisiya göstərib, şəhidlərə həsr edilən şeirlər söyləyiblər.

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Hərbi etikanın əsasları. Hərbi qulluqçular arasında qarşılıqlı münasibətlər, bölmədə sağlam əhval-ruhiyyənin yaranmasında kollektivin rolu.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Silahlı Qüvvələrin nizamnamələrindən istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

**Suallar:**
**1. Hərbi etikanın əsasları.**
**2. Hərbi kollektivlərdə qarşılıqlı münasibətlər və yüksək davranış qaydaları.**

*Hərbi etikanın əsasları*

Hərbi xidmət insanlardan yüksək intizam, icraçılıq, dəqiqlik, təmkinlilik, dözümlülük və çeviklik tələb edən fəaliyyət sahəsidir. Hərbi qulluqçuların xidməti fəaliyyət və ondan kənar vəziyyət şəraitində davranış, müvafiq hərəkət və hadisələrə düzgün reaksiya vermə qabiliyyətini formalaşdıran əxlaqi normalar öz əksini hüquqi sənədlərdə, qanunlarda, nizamnamələrdə, təlimatlarda, komandirlərin əmrlərində tapır. Buna görə əxlaqi tələblər qanun qüvvəsinə minir. Məsələn, qorxaqlıq cəmiyyətdə insanın psixoloji durumunun keyfiyyət göstəricisi kimi yalnız mənəvi baxımdan pislənirsə, hərbi kollektivdə aşkar edilən qorxaqlıq isə çətin məqamda döyüş tapşırığının uğurla yerinə yetirilməsinə mane olan zərərli və təhlükəli bir amil kimi aradan qaldırılmalıdır.

Odur ki, hərbi qulluqçuların qarşısında həmişə hərbi-etik normalardan irəli gələn yüksək tələblər qoyulur. Bununla belə, əxlaq qanunlara, nizamnamələrə kor-koranə tabe etdirilmir. Əksinə, Azərbaycan Ordusunda hərbi xidməti tənzimləyən bütün hüquqi sənədlər, o cümlədən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət, İntizam, Qarnizon və Qarovul Xidmətləri və Sıra nizamnamələri Vətən qarşısında borcun yerinə yetirilməsində könüllülüyün, şüurluluğun, təşəbbüskarlığın vacibliyini vurğulayır.

Hərbi xidmətə çağırılan hər kəs Vətənimiz Azərbaycana sadiq olacağına, hərbi nizamnamələrin tələblərini dəqiq yerinə yetirəcəyinə, komandirlərin və rəislərin əmrlərinə sözsüz tabe olacağına təntənəli surətdə and içir.

Hərbi borcunu daim nümunəvi yerinə yetirən hər bir bacarıqlı döyüşçü yüksək mənəviyyata malikdir. Hərbi borcu həm də ləyaqətlə yerinə yetirmək hərbçinin şərəf işidir. Öz vəzifəsinə layiqincə yanaşmaq hərbi qulluqçulardan bəzən böyük çətinlikləri dəf etməyi tələb edir. Hərbi kollektivin uğuru onun hər bir üzvünün fəaliyyətindən asılıdır. Əgər hamı öz vəzifəsinə Hərbi andın, nizamnamələrin tələblərinə uyğun yanaşırsa, deməli nailiyyət labüddür.

Hərbi etikanın vacib normalarından biri hərbi kollektivdə böyüyə hörmət etmək, subardinasiya qaydalarına riayət etməkdir. Vəzifəcə və rütbəcə kiçik olanlar rəisləri nizamnaməyə uyğun olaraq əsgəri qaydada birinci salamlayır və onlara rütbələri ilə müraciət edirlər.

Hərbi qulluqçular öz aralarında da nəzakətli olmalı, bir-birinə "siz" deyə müraciət etməlidirlər. Bu qayda rəislərə də, onların tabeliyində olanlara da eyni dərəcədə şamil edilir.

Azərbaycan zabiti və əsgəri adını daşıyan hər kəs öz yüksək mədəniyyəti, nəzakəti, təvazökarlığı ilə nümunə olmalıdır. İctimai yerlərdə, nəqliyyatda hərbi qulluqçu rütbəcə böyük olan zabiti, rəisi salamlamalı və ona hörmət etməlidir.

Hərbçilər mülki əhaliyə qarşı da nəzakətli davranmalı, Azərbaycan zabiti və ya əsgəri adını uca tutmalı, bu şərəfli ada ləkə gətirməməlidirlər. Bədbəxt hadisələr zamanı biganə qalmamalı və bacardıqları köməyi göstərməlidirlər. Hər bir döyüşçü səliqəli geyinməli, əlini cibində saxlamamalı, rəisinin və ya komandirinin yanında qeyri-etik hərəkətlərə yol verməməlidir.

Hərbi qulluqçunun mənəvi simasını göstərən cəhətlərdən biri də onun danışığıdır. Ünsiyyət zamanı aydın, səlis və inandırıcı sözlərə üstünlük vermək lazımdır.

*Hərbi kollektivlərdə qarşılıqlı münasibətlər və yüksək davranış qaydaları*

Hərbi xidmətə çağırılan hər bir kəs ordu kollektivinin bir üzvünə çevrilir və silahdaşları ilə nizamnamələrin tənzimlədiyi ictimai və qarşılıqlı münasibətlərə girir.

Hərbi nizamnamələr ordunun xüsusiyyətini və qarşısında duran vəzifələri nəzərə almaqla hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin prinsiplərini müəyyən edir.

Vahid rəhbərlik, təkbaşçılıq və hərbi-etik normalar kollektivdə sağlam və işgüzar iqlimin yaradılmasında aparıcı rol oynayan komandir və rəislərin tabeliyindəkilərə qarşı kifayət qədər tələbkar olmalarını, sonuncuların isə verilmiş əmr və tapşırıqları sözsüz və dəqiq yerinə yetirmələrini, yuxarıda qeyd edildiyi kimi, rütbəcə böyüklərə hörmət göstərmələrini, hərbi salam və nəzakət qaydalarına ciddi əməl etmələrini nəzərdə tutur.

Bir rəhbər və hərbçi-pedaqoq kimi rəis yalnız sözlə, komanda və əmrlə deyil, işə və insana münasibəti ilə də tabeliyindəkilərə təsir göstərir. Tələbkarlıqla yanaşı, zabit həm də qayğıkeş və ədalətli olmalı, hərbi qulluqçular arasında qarşılıqlı inam və səmimiliyin, döyüş yoldaşlığının bərqərar olunmasına çalışmalıdır. Qayğı və inamın mənəvi-psixoloji amil kimi mühüm əhəmiyyəti ondadır ki, döyüşçülərdə nəinki öz komandirlərinə etimad və hörmət hissi aşılayır, eyni zamanda, öz hərbi borcunu ləyaqətlə yerinə yetirməyə həvəs yaradır.

Hərbi qulluqçular arasında kollektivçilik prinsipi nizamnamələrdə geniş yer tutur. Əsgər, çavuş, gizir və zabitlər arasında kollektivçilik, döyüş yoldaşlığı həm əxlaqi, həm də hüquqi norma kimi təzahür edir. Nizamnamələr hərbçilərdə döyüş yoldaşlığını uca tutmağı, sözdə və əməldə silahdaşlarına kömək etməyi, onları nalayiq hərəkətlərdən çəkindirməyi tərbiyə edir.

Əsgər və matroslar arasında münasibətlər döyüşçülərin hərəkət və davranışına, onlarda bir çox şəxsi mənəvi keyfiyyət və vərdişlərin formalaşmasına bilavasitə və ciddi təsir göstərir. Ona görə tabeliyindəkilərə müvəffəqiyyətlə rəhbərlik etmək, hərbi kollektivi möhkəmləndirmək üçün həmin münasibətləri hər bir zabit və çavuş yaxşı bilməlidir.

Hər bir hərbi kollektivdə təlim və döyüş tapşırığını birgə yerinə yetirərkən, ictimai işlərdə, məişətdə əsgər və matroslar arasında, adətən, qarşılıqlı rəğbət və bağlılıq, dostluq və qardaşlıq hissləri yaranır, döyüşçülər vaxt və qüvvə əsirgəmədən hərbi texnikanın sirlərini öyrənməkdə, çətin məqamlarda bir-birinə kömək edir, bir-birinin uğuruna sevinirlər.

Bununla belə, sıravi döyüşçülərin arasında nizamnamə tələblərinin pozulması halları da müşahidə edilir. Bu, adətən nizam-intizamın vəziyyəti ilə, zabit və çavuşların öz vəzifələrinə kifayət qədər ciddi yanaşmamaları ilə, əsgər və matroslar arasında xidmət müddətinin fərqi ilə, onların orduyaqədərki həyat tərzi və vərdişləri ilə izah olunur. Əsgər və matroslar arasında göstərilən mənfi hallar komandir və rəislərdən tərbiyə işinin gücləndirilməsini, neqativ halları doğuran səbəblərin vaxtında aradan qaldırılmasını tələb edir.

Hərbi kollektivlərdə bəzən bir neçə hərbi qulluqçunun birləşdiyi kiçik qrupların yaranması hallarına da təsadüf edilir, bu qruplar ümumi maraq, fəaliyyət və hərbi xidmətə münasibət zəminində ortaya çıxırlar. Hətta ən mehriban kollektivlərdə belə iki və bir neçə nəfərdən ibarət belə qruplar yaranır. Çox vaxt bu qruplar öz silahdaşlarına müsbət təsir göstərir, hərbi kollektivi möhkəmləndirən amil rolunu oynayırlar. Ancaq bəzən özünü kollektivə qarşı qoyan qruplar da əmələ gələ bilər. Belə qruplara qarşı mövqeni düzgün müəyyənləşdirməklə, həm obyektiv amilləri, həm də daxili-psixoloji motivləri üzə çıxarmaq olar.

Ona görə komandirlər və ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlər üçün kollektivlərdə mövcud olan qarşılıqlı münasibətlərin konkret təzahürlərini bilmək, onları təhlil etmək, mənfi halların yaranması və inkişafının səbəblərini vaxtında aşkara çıxarmaq, nizamnamələrin tələblərinə uyğun qarşılıqlı münasibətlərin düzgün vasitə və yollarını seçmək vacibdir.

Hərbi-etik davranış xüsusiyyətləri hərbi xidmət nizamnamələrində öz əksini geniş şəkildə tapmışdır və həmin normalar zabitlərimiz üçün qarşılıqlı münasibətlərin tənzimlənməsinə, ordu kollektivində möhkəm hərbi intizamın təşəkkül tapmasına xidmət edən yararlı istifadə mənbəyidir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## Müdafiə Nazirliyinin rəhbərliyi axtarış əməliyyatlarında fəal iştirak edənlərə təşəkkürünü bildirib

Müdafiə Nazirliyinin rəhbərliyi Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin qəzaya uğradığı ilk gündən pilotun nəşi və təyyarənin qalıqlarının axtarışlarında fəal iştirak edən aidiyyəti qurumların nümayəndələrinə təşəkkürünü bildirib.

Qeyd edək ki, axtarış əməliyyatlarına Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri ilə birgə Türkiyə Respublikası Hərbi Dəniz Qüvvələrinin xilasetmə qrupunun üzvləri, Fövqəladə Hallar Nazirliyinin Dövlət Sularda Xilasetmə Xidmətinin dalğıcları və katerləri, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Vaqif Cəfərov" kran, "Nefteqaz-58" təchizat-yedək, "Məmməd Süleymanov" elmi-tədqiqat gəmilərinin heyətləri və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin dalğıcları cəlb olunmuşdular.

## Hərbi pilotun dəfninin təşkili ilə bağlı müvafiq tədbirlər görülür

İyulun 24-də plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları keçirən zaman qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin pilotu polkovnik-leytenant Atakişiyev Rəşad Saləddin oğlunun nəşi və təyyarənin qalıqları tapılaraq dənizdən çıxarılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, avqustun 21-də saat 10.00-da Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində hərbi pilotla vida mərasimi keçiriləcək.

Hazırda hərbi pilotun dəfninin təşkili ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 21-də Göygöl rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Martin Şuster keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçirəcəklər.

# Əsgərlərin qidalanması yüksək səviyyədədir

*Bu gün Azərbaycan dövlətinin nail olduğu iqtisadi inkişaf nəticəsində Azərbaycan Ordusunun maddi-texniki bazası möhkəmləndirilib. Möhkəm maddi-texniki bazaya malik olan Azərbaycan Ordusu müstəqilliyimizin, ərazi bütövlüyümüzün qarantıdır. Bu baxımdan Azərbaycanda gedən ordu quruculuğu prosesi dövlətimizin milli maraqlarının təmin edilməsi yolunda mayak və ölkəmizin qələbəsini şərtləndirən kifayət qədər mühüm amildir. Odur ki, Azərbaycan dünyada inkişaf edən iqtisadiyyata malik bir ölkə kimi tanınmaqla yanaşı, həm də müasir döyüş imkanlarına malik ordusunun olması ilə diqqəti cəlb edir. Qarşısında dayanan vəzifələri çevik, operativ və yüksək dəqiqliklə yerinə yetirmək imkanlarına malik olan ordumuzun ən modern standartlara cavab verən müasir səviyyədə formalaşması olduqca qürurvericidir.*



Ön xətdə yerləşən hərbi hissə ilə tanışlığımız bir daha sübut etdi ki, hərbi hissələrdə şəxsi heyətin qida və sağlamlıq durumu, məişət problemlərinin həlli, döyüş hazırlığının yüksəldilməsi, eləcə də hərbi biliklərin dərinləşməsi yönündə məqsədyönlü, uğurlu tədbirlər planı həyata keçirilməkdədir.

Ezamiyyət zamanı nəzərdə tutduğumuz obyektlərə baş çəkdikdən sonra gəldiyimiz növbəti məkan hərbi hissənin əsgər yeməkxanası oldu. Əsgər yeməkxanasına baş çəkməyimiz nahar fasiləsinə təsadüf etdiyindən şəxsi heyətin yeməkxananın qarşısında düzüldüyünün şahidi olduq. Sıra ilə düzülmüş əsgərlər komandirlərinin komandasını aldıqdan sonra baş geyimini çıxardıb ardıcıllıqla yeməkxanaya daxil oldular. Əsgər yeməkxanası ilə tanışlıq zamanı bir daha əmin olduq ki, əsgərlərin gündəlik qidalanması lazımi səviyyədədir. Yeməkxanada səliqə-sahmana və təmizliyə tam riayət edilir. Gündəlik yeməyin hazırlanması ilə məşğul olan hərbi və mülki işçilərin xüsusi geyimdə olması da bu qənaəti bir daha gücləndirir.

Şəxsi heyətin qida rasionu ilə maraqlanmaq məqsədilə ilk yaxınlaşdığımız şəxs aşpaz kiçik çavuş Elşən Nəsibov oldu. Öyrənirik ki, Elşən Nəsibov altı ildir bu hərbi hissədə işləyir və üç ildir əsgərlərimizin milli xörəklərlə qidalanması işinə öz töhfəsini verir. Bu gün Azərbaycan Ordusunun xüsusilə cəbhə xəttində, dağlıq ərazilərdə döyüş tapşırığını yerinə yetirən bölmələrin şəxsi heyəti yüksək kalorili qida ilə təmin olunurlar, - deyə E.Nəsibov söhbətə başladı. - Əsgərlərimizin qida rasionuna tabii və qatılaşdırılmış süd, bal, meyvə, kartof, düyü, ət, toyuq əti, balıq, yumurta, müxtəlif növ çörək, bəzi şirniyyat növləri, təbii şirə, bostan və tərəvəz məhsulları və s. daxildir. Bundan başqa əsgərlərə hər gün tərəvəzdən hazırlanmış müxtəlif şorabalar və salatlar da verilir. Bir sözlə, şəxsi heyət üçün nəzərdə tutulmuş qida rasionu son dərəcə zəngindir. Demək olar ki, əsgərlərə milli mətbəximizdə bişən əksər yeməklər verilir. Bu isə əsgərlərimizin dözümlü və güclü olmasını şərtləndirən amildir. Bundan başqa burada qida təhlükəsizliyinə də çox ciddi nəzarət olunur.

Yeməkxana növbətçisi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Müzəffər İsmayılov bildirdi ki, şəxsi heyətin gününün nizam qaydasına uyğun olaraq xidmətinin təmin olunması bu və ya digər formada onlardan da asılıdır: "Əvvəllər məişət işlərini əsgərlər özləri görürdülər. Bu da onları hərbi xidmətdən ayırır, şəxsi heyətin hərbi sirləri dərindən mənimsəməsinə təsir göstərirdi. Artıq neçə illərdir ki, məişət işlərinin görülməsinə, o cümlədən yeməklərin bişirilməsi prosesinə xanımların cəlb olunması şəxsi heyətimizin formalaşmasına və torpaqlarımızın etibarlı qorumasına öz töhfəsini verir. Nəticədə, Azərbaycan əsgəri öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir, torpaqlarımızı etibarlı müdafiə edir".

Kiçik çavuş Elşən Nəsibov isə bildirdi ki, əsgər yeməkxanasında şəxsi heyətin yüksək kalorili qida ilə təminatı üçün hər cür şərait var. "Yeməkxanada səliqə-sahmana, təmizliyə və gigiyenik qaydalara xüsusi riayət edilir. Əgər görülən işlərin hər birinin sonunda insan amili dayanırsa, demək ki, abad və təmiz mühitdə yaşamaq və qidalanmaq şəxsi heyətimizin haqqıdır. Əsgər yeməkxanasında təmizliyin təmin olunması hərbi hissədə ümumi fəaliyyətin mühüm tərkib hissəsidi. Bizim isə vətəndaş kimi, hərbi qulluqçu kimi, borcumuz əsgərlərimizə, o cümlədən Vətənimizə xidmət etməkdir".

Mayor Samir Əhmədov şəxsi heyətin qida rasionuna diqqətimizi çəkdi: "Şəxsi heyətin aylıq rasionunda ət, yumurta, balıq məhsullarından tutmuş meyvə-tərəvəzə, kompot və təbii şirələrə qədər bir çox qida məhsulları yer tutur. Şəxsi heyətin düzgün və keyfiyyətli qidalanması ən vacib məsələlərdən biridir. Bunun üçün hərbi hissənin yeməkxanasında hər bir şərait yaradılıb. Hərbi hissəyə gətirilən təzə və keyfiyyətli ərzaq məhsulları soyuducu kameralarda saxlanılır. Şəxsi heyət üçün normaya uyğun olaraq gündə üç dəfə yemək hazırlanır. Menyuda milli mətbəximiz üstünlük təşkil edir. Xanım aşpazların qayğıkeş münasibəti sayəsində yeməklər ev yeməyindən heç də fərqlənmir".

Yeməklərin keyfiyyətini öyrənmək məqsədilə əsgərlərə yaxınlaşırıq. Əsgərlər Mehrac Şahverdiyev, Elmir Allahverdiyev yeməklərin keyfiyyətindən razılıqlarını bildirdilər və ev yeməklərindən fərqlənmədiyini qeyd etdilər. Əsgərlər onu da bildirdilər ki, qabların yuyulması, yeməkxananın təmizlənməsi prosesindən tutmuş yeməklərin bişirilməsinə kimi bütün təsərrüfat işlərini mülki işçilər görür. İndi bizim öhdəmizə bir iş düşür: "Vətənə layiqincə xidmət etmək. Biz əsgərlər də üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirmək, doğma torpaqlara dikilmiş bütün məhəbbətli gözlərə sevinc göz yaşı bəxş etmək istəyirik. Azərbaycan əsgəri Ali Baş Komandanın əmri ilə ata-babalarımızın müqəddəs əmanəti olan Vətən yolunda hünər göstərməyə, döyüşlərə atılmağa, xalqımıza sevinc bəxş etməyə həmişə hazırdır."

**Mayor Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

*Hərbi texnikalar, silahlar*

# KNT-308 snayper tüfəngi



KNT-308 (Kəskin Nişançı Tüfəngi-308) Türkiyənin ilk tüfəngi sayılır. Xarici görünüşünə görə AWP silahına oxşayır. 2008-ci ildə Türkiyənin "MKEK" dövlət şirkəti tərəfindən onun istehsalına başlanılıb. Snayper tüfəngi Türkiyənin Silahlı Qüvvələrində, polis sistemində, həmçinin şəxsi insanlar tərəfindən istifadə edilir və öz yüksək göstəricilərinə görə digər tüfənglərdən fərqlənir. KNT-308 snayper tüfəngi İDEF-2009 sərgisində də nümayiş etdirilib. Tüfəngdə 7,62 mm-lik patronlardan istifadə edilir. Maqazini beş patrondan ibarətdir. Tüfəngdə nişangah üçün kronşteyn (dayaq) də quraşdırılıb. KNT-308 snayper tüfənginin effektli atış məsafəsi 600-800 metr, nişangah uzaqlığı isə 1000 metrdən çoxdur.



**Hazırladı:**
**Svetlana YUSUBOVA**

# Xəbərlər: hadisələr, faktlar

## Əşrəf Qani: İŞİD-in Əfqanıstandakı yuvası dağıdılacaq



Əfqanıstan Prezidenti Əşrəf Qani İŞİD qruplaşmasının Əfqanıstandakı yuvasının dağıdılacağını vəd edib.

Prezident bu bəyanatla Kabulda toy mərasimində törədilən terror aktından sonra çıxış edib.

Partlayıcı qurğu şənbə günü yerli vaxtla saat 22:40-da paytaxtdakı toy salonlarından birində terrorçu-kamikadze tərəfindən işə salınıb. Son məlumata görə, partlayış nəticəsində azı 63 nəfər ölüb, 180-dən çox insan yaralanıb. Partlayışın məsuliyyətini İŞİD qruplaşması üzərinə götürüb.

"Biz İŞİD-in sığınacaqlarını bütün ölkəboyu məhv edəcəyik. İŞİD-ə qarşı mübarizə aktivləşdiriləcək", - deyə Əşrəf Qani bildirib. Prezident əlavə edib ki, hadisə ilə əlaqədar ölkənin müstəqilliyinin 100-cü ildönümünün bayram edilməsi başqa vaxta keçiriləcək.

## Türkiyənin 29 şəhərində PKK terror təşkilatına qarşı genişmiqyaslı əməliyyat keçirilib



Türkiyənin Diyarbakır, Mardin və Van daxil olmaqla, ümumilikdə, 29 şəhərində PKK terror təşkilatına qarşı genişmiqyaslı əməliyyat keçirilib.

Əməliyyatlar nəticəsində FETÖ terror təşkilatına üzv olmaqda şübhəli bilinən 418 nəfər saxlanılıb. Saxlanılanlar aidiyyəti qurumlara təhvil veriliblər.

## Gürcüstan ABŞ ilə hərbi əməkdaşlığı genişləndirir



Gürcüstan ABŞ ilə hərbi sahədə əməkdaşlığı genişləndirir. Yaxın günlərdə iki ölkə arasında hərbi sahədə əməkdaşlığa dair üçillik müqavilə imzalanacaq.

Bu məlumatı Gürcüstanın Müdafiə naziri Levan İzoria ABŞ-ın ölkəyə yeni təyin olunmuş hərbi attaşesi Stefani Beqli ilə görüşündən sonra açıqlayıb.

Nazirin sözlərinə görə, ABŞ regionda Gürcüstan ilə əməkdaşlığa böyük önəm verir. Görüşdə bu məsələ ciddi müzakirə olunub və yaxın günlərdə iki ölkə arasında hərbi əməkdaşlığa dair üçillik əməkdaşlıq müqaviləsinin imzalanması barədə razılıq əldə olunub.

## BMT yeni dəhşətli silah növünün yayılacağından narahatdır



BMT yeni dəhşətli silah növünün - ultramanevrli hipersəsli uçan aparatların yayılacağından narahatdır. ABŞ, Çin və Rusiyanın fəal şəkildə hazırladıqları və sınaqdan keçirdikləri bu aparatların beynəlxalq sülhə və təhlükəsizliyə böyük təhdid olacağı bildirilir.

Təşkilatın ekspertləri bu silah növü ilə bağlı hazırladıqları hesabatda raket tipli bu təhlükəli aparatların hazırlanmasını güclü dövlətlər arasında silahlanma yarışının yeni mərhələsi kimi qiymətləndirirlər. Onlar qeyd edirlər ki, ultramanevrli hipersəsli planlayan aparatların tətbiqi məsələsinə də aydınlıq gətirilməyib. "Raket başlıqlarının xarakterinin (onlar nüvə və adi başlıqlar ola bilər), habelə potensial hədəflərin gizli saxlanılması göstərir ki, ən yüksək sürətə malik olacaq bu aparatlar böyük təhlükə mənbəyi olacaq", - deyə hesabatda vurğulanır. Müəlliflər onlardan nüvə zərbələri üçün istifadə olunacağı ehtimalının daha yüksək olduğunu da bildirirlər.

Ultramanevrli hipersəsli uçan aparatlar üzərində işlər hələ 1980-cı illərdə Sovet İttifaqında aparılıb. Onun bugünkü variantı olan "Avanqard" raket kompleksi isə, Rusiya Prezidenti V.Putinin bildirdiyinə görə, 2019-cu ilin sonunda istismara buraxılacaq. Artıq Çində hipersürətli raketlərin doqquz sınağı keçirilib və onlardan altısı uğurlu olub. Fransa, Yaponiya və Hindistan da bu silah növünə böyük maraq göstərirlər.

**AZƏRTAC-ın materialları əsasında**

*Düşüncələr*

# Oğulların yolu ataların yoludu

*Səngərlərin istisindən-bürküsündən, soyuğundan-sazağından keçib döyüşlərdə iştirak edən, yaddaşı tarixlərin yaddaşına dönən, bir ömürdə neçə-neçə şəhid əsgərin də ömrünü yaşadan ataların döyüş yolunu oğullar həmişə sevgiylə, sədaqətlə davam etdiriblər, indi də davam etdirirlər. Yola ömür də deyirlər. Yol kəlməsinin yozumlarını nəzərə alanda Vətənlə, dövlətlə bağlı olanlardan birinə, döyüş yoluna daha həssas münasibət yaranır və bu səbəbdən də yolun davamına tərəddüd etmədən ömrün davamı deyə bilərik...*

Oğulların dünyagörüşü həm də ata (baba) söhbətləriylə, ata (baba) xatirələriylə daha da genişlənir, kitablardan, qəzetlərdən oxunanlar, yaşa, hafizəyə müvafiq dərk edilənlər ata (baba) kəlamlarıyla tamamlanır. Hərbi xidmətə həm də bu kəlamların aşıladığı mənəvi dəyərlərin zəmanətiylə başlayan oğulların düşüncələri də zənginləşir...

Hər şeirini həyat fəlsəfəsi bildiyimiz xalq şairi Məmməd Araz İnfil kişinin kəlmələrinin cəminə "Atamın kitabı" demişdi. Müharibə görmüş, döyüşmüş ataların, babaların döyüş xatirələri oğulların (nəvələrin) dəyərli vətənpərvərlik kitabıdı.

Zamanında atalar hərbi xidmətdə olub; hərbi xidmətin bəlkə də hər günü yaddaşlarındadı. Ataların yaddaşlarından süzülüb kəlmələşən məsləhətlər, mətləbli xatirələr oğulların yüksək məsuliyyətli, incə hissiyyatlı vətəndaş kimi formalaşmasında əhəmiyyətlidir, müəyyən mənada, pedaqoji xarakterlidir. Atanın (babanın) dediklərini, hərbi xidmətlə bağlı xatirələrini - söhbətlərini çağırışçı oğullar (nəvələr) maraqla dinləyir, dinləyə-dinləyə düşüncələrinə hopdurur. Bu, Vətənin müqəddəslik mərtəbəsində dərkinə (və yaşadılacağına!) zəmin deməkdir. Zamanında hərbi xidmətdə olmuş ataların (babaların) belə söhbətlərinin mahiyyəti illərdən sonra da Vətənə xidmət deməkdi.

Müdafiə nazirinin təsdiq etdiyi plana uyğun olaraq keçirilən "Açıq qapı" günündə diqqətimi hərbi hissənin qarşısında narahatlıqla gəzişən, baxışları nəzarət-buraxılış məntəqəsinin giriş qapısından üzülməyən 10-12 yaşlı uşaq çəkmişdi. Ünsiyyət yaratmaq, söhbətləşmək istəmişdim. Tərəddüd etmədən yaxınlaşmışdım. Əlim aramla iki üç dəqiqədən sonra tanıyacağım uşağın saçlarına enmişdi. Nəsə soruşmaq istəmişdim. Nə soruşacağımı, necə soruşacağımı qətiləşdirənə kimi




Rəvan həvəslə demişdi:

- Hamının atası kimi mənim də atam əsgər olub, Murovdağda xidmət edib. Atamın söhbətlərini həmişə maraqla dinləmişəm. Atam deyir ki, əsgərlik borcdu, hər oğlan bu borcu yerinə yetirməlidi. Böyük qardaşım Kənan əsgərdi, bu gün onun yanına gəlmişik. Bir azdan görüşəcəyik. Qardaşım cəsarətli oğlandı. İnanıram ki, yaxşı əsgərdi. İstəyirəm ki, komandirlər onu tərifləsinlər. Böyüyəndə mən də onun kimi əsgər olacam.

Mənə elə gəlmişdi ki, Rəvanı hərbi hissəyə təkcə əsgər qardaşıyla görüşmək istəyi deyil, həm də atasının hərbi xidmət xatirələrindən boy göstərən maraq gətirmişdi. Kim bilir, bəlkə də bu maraq gələcəkdə arzuya, niyyətə çevriləcək, bu arzunun, niyyətin işığı onun hərbi məktəbə aparacaq yolunu nurlandıracaq. Hamımıza məlumdur ki, ata söhbətləri oğulların peşə seçimində də əhəmiyyətli təsirə malik olur...

Oğulların atalarıyla, ataların oğullarıyla qürurlanması Azərbaycanda həyat, yaşam fəlsəfəsinin tərkib hissələrindəndir və bu yaşarı fəlsəfəni atalar da böyük sədaqətlə yaşadır, oğullar da.

Yadımdadır, "Açıq qapı" günündə əsgər atası Amil İsgəndərov demişdi:

- Əsgər olanda çox qürurlanırdım. Elə bilirdim ki, alçaq dağları mən yaratmışam. İllər keçdi, əsgər atası oldum. Məni bu adla tanıtdığına, bu adla qürurlandırdığına görə oğlum Emilə minnətdaram. Sən demə, əsgər atası olmaq adama əsgər olmaqdan daha böyük qürur yaşadırmış...

Amil İsgəndərovun səmimi kəlmələrindən sonra qət etdim ki, əsgər atası adıyla qürurlanmaq mənəvi kamillikdi və milli mentalitet səviyyəsində yaşadılır. Bu, mahiyyəti baxımından azərbaycançılıqdır. Daha əhatəli duyğusallıqla, daha böyük məsuliyyətlə yaşadılan mənəvi kamillik ifadəsini azərbaycançılıq ifadəsinə müvafiq bilirəm.

Ata yolu ifadəsi təkcə ixtisasla, peşəylə bağlı deyil; hərbçi atanın oğlu hərbçi olmadan da ata yolunun davamçısı olur - Vətən sevgisiylə, yüksək vətəndaşlıqla, atanın milli-mənəvi dəyərlərə sədaqətini yaşatmaqla, ...

"Ataların yolu oğulların yoludur" - deyənlərə bir həqiqəti də xatırladıram: bu yol Vətən üçündürsə, bu yol dövlət, dövlətçilik üçündürsə, bu yol tariximizə sədaqət yoludursa, ..., bəli, oğulların yolu ataların yoludur, ataların yolu oğulların yol göstərənidi...

Müharibə şəraitində oğul ata yolunu daha qətiyyətlə davam etdirir. Kim bilir, bəlkə də əsgər Elvar Əbilov gələcəkdə atası kimi zabit olacaq...

1993-cü ilin dekabr ayının son günləriydi. Murovdağda ezamiyyətdəydim. Şaxtaydı. Sazağıydı. Niyə burada olduğunu dərk edənlərin əhatəsində hiss etmədiyimizə görə şaxtadan, sazaqdan gileyli deyildik. Əsgərlərə "Şaxtanı, sazağı sizin Vətən sevginiz, döyüş əzminiz, qələbə ruhunuz yumuşaldır", - demişdim. İki günün içində aramızda adilikdən yüksəkdə dayanan münasibət yaranmış əsgər Sabir Qurbanov gülümsünərək, "Atam əsgər oldu - beş il torpağı qorudu, mən də əsgər oldum - iki ildi torpağı qoruyuram, qismətimdə varsa oğlum da əsgər olacaq - torpağı qoruyacaq. Ömür Vətən üçün yaşanılmalıdı, qardaş...", - demişdi...

İllər keçdi.

2018-ci ilin ilkin yazında Murovdağda ezamiyyətdəydim. Məni 24 ildən sonra həmin mövqedə dayanmaq, nələr haqdasa düşünmək duyğulandırmışdı. Komandirin təqdimatıyla əsgər Samir Qurbanovla söhbətləşirdik. Samir sözarası dedi ki, ömür Vətən üçün yaşanılmalıdı. Mənə doğma kəlmələr düşüncələrimi, illərin o üzündə qalmış anların xatirələrini titrətdi. Davamlı baxışlarım əsgərin gözlərinə dikildi...

Nələrisə dəqiqləşdirməyə xidmət edən suallara aldığım cavablardan bir ürək tutumunca kövrəlmişdim - əsgər Samir Qurbanov 1993-cü ilin dekabr ayının sonlarında həmin məkanda kəlmələşdiyim əsgər Sabir Qurbanovun oğluymuş! Oğulların yolunun ataların yolu olduğuna necə inanmaya bilərdim? Murovdağdan aşıb qələbə döyüşünə başlamaq niyyətli əsgərin oğlu həmin mövqedən döyüşə başlayacaqları günün intizarındadı...

1993-cü ilin dekabrını birlikdə xatırladıq. Samiri bağrıma basdım - nümunəvi əsgər olduğuna görə, igid bir əsgərin oğlu olduğuna görə, ata kəlamını yaşatdığına görə...

Görəsən Sabir Qurbanov oğlunun da burada xidmət elədiyini biləndə hansı hissləri keçirib? - kövrəklik, qürur, sevinc, şükranlıq...

Əsgər Samir Qurbanovun hərbi xidmətini atası əsgər Sabir Qurbanovun hərbi xidmətinin davamı bilirəm. Bu inamla da deyirəm: Əlbəttə ki, oğulların yolu ataların yoludu...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Ülvi Qənizadə dünya çempionatının gümüş medalını qazanıb



Estoniyanın paytaxtı Tallində gənc güləşçilər arasında dünya çempionatı başa çatıb.

Yarışın son günündə mübarizə aparan daha bir təmsilçimiz medal qazanıb. Yunan-Roma güləşçimiz Ülvi Qənizadə (72 kiloqram) finalda rusiyalı Sergey Stepanova 1:3 hesabı ilə məğlub olaraq gümüş medalla kifayətlənib.

Beləliklə, Azərbaycan güləşçiləri gənclər arasında dünya çempionatını 2 gümüş, 4 bürünc medalla başa vurublar.

## "Judo Club 2012"nin gənc üzvləri Azərbaycan birinciliyində uğurla çıxış ediblər



"Judo Club 2012"nin üzvləri "Sərhədçi" İdman Olimpiya Mərkəzində keçirilən 23 yaşadək gənclər arasında cüdo üzrə Azərbaycan birinciliyində uğurla mübarizə aparıblar.

Çempionatda 24 (18 oğlan, 6 qız) idmançı ilə təmsil olunan klubun yetirmələri 4 qızıl, 6 gümüş və 3 bürünc medala sahib olublar. Komandanın üzvlərindən Elçin Hüseynov (66 kq), Samir Ağayev (81 kq), Diana Şoranova (63 kq) və Aidə Baxışova (70 kq) bütün rəqiblərinə qalib gələrək Azərbaycan çempionu adını qazanıblar. Nurlan Osmanov (66 kq), Sərdar Səfixanov (90 kq), Kənan Əhmədov (+100 kq), Elvira Əsgərova (52 kq), Zeynəb Məmmədova (57 kq) və Nərmin Abdullayeva (70 kq) gümüş medala sahib olublar. Yaşar Nəcəfov (60 kq), Fərid Qəzənfərov (60 kq) və Ayxan Tanverdiyev (66 kq) isə komandaya bürünc medallar qazandırıblar. Klubun digər üzvlərindən Vilayət Cəlilov (66 kq) beşinci, Mirəli Hüseynli (90 kq), Murad Məmmədov (100 kq) və Rahidə Cavadova (63 kq) isə yeddinci yerlə kifayətləniblər.

Beləliklə, 23 yaşadək gənclər arasında Azərbaycan birinciliyini 13 medalla başa vuran "Judo Club 2012"nin yetirmələri komanda hesabında birinci yeri tutublar. "Neftçi" İdman Klubunun yetirmələri (4 qızıl, 1 gümüş, 5 bürünc) ikinci, "Atilla" komandası isə (2 qızıl, 1 gümüş, 2 bürünc) üçüncü olub. Ölkə birinciliyinin qalib və mükafatçıları medallar və Azərbaycan Cüdo Federasiyasının diplomları ilə təltif olunublar.

Son illərdə uğurları ilə diqqəti cəlb edən "Judo Club 2012"nin gənc cüdoçuları bu ilin iyununda təşkil olunan 23 yaşadək gənclər arasında açıq Bakı birinciliyində də qalib gəliblər. Yarışda 51 klubu təmsil edən 347 (294 oğlan, 53 qız) cüdoçu medallar uğrunda mübarizə aparıb.

## Qadın voleybolçulardan ibarət Azərbaycan millisi Sloveniya yığmasına qalib gəlib



Avropa çempionatında iştirak edəcək voleybol üzrə qadınlardan ibarət milli komandamız Sloveniyada təlim-məşq toplanışını davam etdirir.

Hazırlıq prosesi çərçivəsində millimiz Sloveniya yığması ilə yoldaşlıq oyunu keçirib. Voleybolçularımız yoldaşlıq matçında 5:0 hesabı ilə qalib gəliblər.

Komandamız növbəti yoldaşlıq oyununu avqustun 20-də yenidən Sloveniya yığmasına qarşı keçirəcək. Millimiz Avropa çempionatının keçiriləcəyi Macarıstana avqustun 21-də Sloveniyadan birbaşa yollanacaq. "C" qrupunda mübarizə aparacaq komandamızın rəqibləri Xorvatiya, Hollandiya, Rumıniya, Estoniya və Macarıstan yığmaları olacaq.

Qeyd edək ki, son Avropa çempionatında millimiz dördüncü olub.

**AZƏRTAC-ın materialları əsasında**

Baş çavuş İslamova Gülər Tahir qızına 2016-cı ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 544
Nüsxə 3950